**COP29 mövzusu gündəmə gətirilməklə Azərbaycana qarşı təzyiq vasitələri formalaşdırılır - ŞƏRH**

Təəssüf ki, Azərbaycana qarşı informasiya hücumunda saxta profil və hesablardan istifadə olunur, xüsusilə də son dövrlər Azərbaycan çox önəmli mötəbər bir tədbirə ev sahibliyinə hazırlaşdığı bir vaxtda bu hücumlar davamlı hal alır və mütəşəkkil qaydada təşkil olunur.

Bunu edən mərkəzlər COP29 kimi gündəmdə olan bir beynəlxalq konfransın Azərbaycanda keçirilməsini bəri başdan şübhə altına almağa, bununla COP29-un önəminə kölgə salmağa çalışırlar. Aydın məsələdir ki, COP29 BMT tədbiri olsa da, bu tədbirin Bakıda keçirilməsi qərarı məhz ölkəmizin uğuru sayıla bilər. Məhz uğurlu diplomatiyamız və beynəlxalq miqyasda nüfuzlu ölkə olma faktı COP29-un Bakıda keçirilməsi qərarını ərsəyə gətirdi. Bu tədbirin yüksək səviyyədə keçirilməsi üçün Azərbaycan lazım olan bütün addımları atır və konfransa hazırlıqlar yüksək səviyyədədir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan-Amerika Gəncləri İctimai Birliyinin sədri Vüqar Əhmədov deyib.

O, konfransda iştirak etmək istəyən bütün tərəflərə şərait yaradıldığını, bir müddət əvvəl olduğu kimi müəyyən sifarişli kiberhücumların və təxribatların, liderlərin tədbirə qatılmasının qarşını almaq cəhdlərinin şahidi olduğunu bildirərək vurğulayıb: “Azərbaycan bu təxribatların qarşını məharətlə dəf edə bilir. Dünyanın bir çox liderlərinin konfransda iştiraklarını təsdiq etdiyi bir vaxtda yenidən kiberhücumların təşkil edildiyinin şahidi oluruq. Bu hücumların məhz “X” sosial platforma üzərindən təşkili ona hesablanıb ki, həm COP29 mövzusu, eyni zamanda, “X” sosial platforması qlobal gündəmə təsir edir. Bu mövzunu gündəmə gətirməklə Azərbaycana qarşı təzyiq vasitələri formalaşdırılır. Bütün bunların eyni mərkəzdən, sifarişli həyata keçirilməsi açıq-aydın görünür və bunu təşkil edənlərin məqsədləri bu mövzu üzərindən siyasi dividendlər qazanmaqdır. Çünki Azərbaycanda COP29-a böyük prioritet verilməsindən xəbərdardırlar. Xüsusən Qərbdə ermənipərəst və erməni diasporunun təsir dairəsində olan beynəlxalq şəbəkələr və təşkilatlar indi bu istiqamətdə xeyli fəallaşıblar və total kiberhücumlar təşkil edirlər, öz siyasi gündəliklərinə bu mövzunu daxil etməyə çalışırlar. Lakin bütün bunlar yolverilməzdir, Azərbaycan tərəfi qərəzli mövqedə olan qüvvələrin COP29 üzərindən belə hücumlarını qətiyyətlə pisləyir. COP29-un Azərbaycanda keçirilməsi qərarına bütün dünya yekdilliklə səs verib və dünyanın tamhüquqlu üzvü kimi bu qlobal tədbirə yüksək səviyyədə ev sahibliyi etmək Azərbaycanın haqqıdır. Burada mövzu kənarda qala-qala onların ev sahibliyi edən ölkəmizi hədəf seçməsi açıq-aşkar çirkli siyasi kampaniyanın aparıldığının göstəricisidir”.

**AZƏRTAC**
**2024, 6 noyabr**